

# Eyvaz Avşar

Eyvaz Avşar (Həsənalıyev Eyvaz Muxtar oğlu) Ağcabədi rayonunda anadan olub. İqtisad Universitetinin məzunudur. Poeziya həvəskarı, gözəl şeirlər müəllifidir. Yazıları müxtəlif mətbuat orqanlarında işıq üzü görüb...

## Kaş

Arzuların qanadında
Mənlə qoşa uçaydın kaş!..
Candan yanıb eşq odunda
Yad gözlərdən qaçaydın kaş!..

Düşünürəm səni hər gün,
Eşq evimdir-sənin könlün
Qəlbinə mən girmək üçün
Qapını sən açaydın kaş!..

Ürəyim arzuyla dolub,
Saf eşqə nəğmələr qoşub,
Ay qız, sən bir günəş olub
Ömrümə nur saçaydın kaş!..

## Neynim

Gecələr yuxuma haram qatacam,
Gündüzlər pusquda xəlvət yatacam,
Sevdiyim bir qıza kəmənd atacam,
Tutsam, qız mənimdi!.. Tutmasam neynim?

Bir baxış tutmuşdum... birdən qaçırtdım,
"Sevirəm" sözünü dildən qaçırtdım,
Bir qızı ürküdüb gözdən qaçırtdım,
Tapsam, qız mənimdi!.. Tapmasam neynim?

Ordan-burdan aldım səs-sorağını,
Axır tapdım onun yer-yatağını,
Eyvaz, ona güman et çatmağını,
Çatsam, qız mənimdi!.. Çatmasam neynim?

## Ola-ola

Ürək açdım nazlı yara,
Könül verdim vəfadara,
Vurğun oldum ilk bahara,
Yaza vurğun ola-ola.

Atdım, oxum dəydi daşa,
Az qaldı ki, ağlım çaşa,
Vurğun oldum qələm qaşa,
Gözə vurğun ola-ola!

Gözəl yarım, bax bu çağa,
Sevən qəlbim dönsün dağa,
Aşiq oldum mən ocağa,
Közə vurğun ola-ola!

Xəbər verin al yanağa,
Gedin deyin bal dodağa,
Məftun oldum ağ buxağa,
Üzə vurğun ola-ola!

Bülbül kimi ötə-ötə,
Gəlib çatdım bu hörmətə,
Qulaq asdım çox söhbətə,
Sözə vurğun ola-ola!

Bir də fürsət düşməz ələ,
Özüm qəsdən bilə-bilə,
Naz elədim bir gözələ,
Naza vurğun ola-ola!

İlham aldı könlüm yenə,
Güc eylədi sevgi mənə,
Heyran oldum bir gəlinə,
Qıza vurğun ola-ola!

Sis-dumanı yara-yara,
Qalxdım uca, göy dağlara,
Qonaq oldum bulaqlara,
Buza vurğun ola-ola!

Ötən günü yola saldım,
Xəyal etdim, fikrə daldım,
Getdim təzə kaman aldım,
Saza vurğun ola-ola!

Dəstək durdum ədalətə,
Meydan verdim səadətə,
Dövran qurdum həqiqətə,
Düzə vurğun ola-ola!

Bu dünyaya baxa-baxa,
Kövrək qəlbim olub yuxa,
Eyvaz, əlin çatar çoxa,
Aza vurğun ola-ola...

## Bayatılar

Qızılgülün budağı,
Yamyaşıldır yarpağı,
Bu dünyada çətindir
Yarın yardan doymağı.

Qızılgülün yarpağı,
Tikanlıdır budağı,
Mən nə edim ki, gülsün…
Küsmüş yarın dodağı.

Qızılgül tağa döndü,
Tağ atdı, bağa döndü,
Sevdiyim qızı gördüm
Ürəyim dağa döndü.

Qızılgülü süzmüşəm,
Yar saçına düzmüşəm,
Baldan şirin qəmində
Ürəyimi üzmüşəm.

Qızılgülü tezdən dər,
Ləklərinə su əndər,
Sən qəm çəkə bilməzsən,
Qəmini mənə göndər.

Qızılgülün özünə,
Şeh düşübdür üzünə,
Gözüm bütün sutkanı
Baxaydı yar gözünə.

Qızılgül yata-yata,
Ətrinə bata-bata,
Vüsala möhtac qaldım
Vüsala çata-çata.

Qızılgül var, saxlanır,
Şeh düşür pardaqlanır,
Odlanaq eşq odunda,
Gəl, görək kim çox yanır.

Qızılgülüm yanaşı,
Yaxılmadı xınası,
Süngüləndi bir körpə,
Yetim qaldı anası.

Qızılgülüm gül açar,
Dilini bülbül açar,
Haqsızlığı görəndə
Dilsizlər də dil açar.

Qızılgülüm dirçələr,
Yazda yenə qönçələr,
Şəhid verən Vətənim
Zirvələrə yüksələr.

Qızılgül, xınan hanı,
Kim sevər biyabanı?
And yerinə çevrildi
Şəhidlər xiyabanı.

Qızılgülü bağ ağlar,
Ölənini sağ ağlar,
Kimsəsiz ölənləri
Dərə, təpə, dağ ağlar.

Qızılgül bitən oğlu,
Haraya yetən oğlu,
Özünü şəhid etdi,
Doğuldu Vətən oğlu.

Qızılgülüm üzüldü,
Ayaq altda əzildi,
Aparıldı soyqırım,
Çox nəsillər kəsildi.

## Görürəm

Nələr yox insanın xəritəsində?!
Onların gözündə sərvət görürəm.
Çox şey var insanın göz giləsində,
Gözdə qorxu, təlaş, heyrət görürəm.

İnsan var dərdlidir, gülə bilməyir,
Gözündən məlalı silə bilməyir,
Ümidlə yaşayır, ölə bilməyir,
Mən onun gözündə möhnət görürəm.

Lalın da, korun da məhəbbəti var,
Onun məhəbbəti gözdə oxunar,
Gözlərlə gözlərə ilmə toxunar,
Gözdə eşq, sevgi, məhəbbət görürəm.

İnsan bir-birinə etibar edər,
Gözündən kədəri silinər gedər,
Yaş tökər gözündən sevinci qədər,
Ağlayan gözlərdə ülfət görürəm.

İnsanı insana düşmən eyləyən,
Qəzəbdə öldürüb kinə bələyən,
Baxışda intiqam, qisas söyləyən,
Çox insan gözündə nifrət görürəm.

Köksünə didərgin dərdi əkilən,
Talanan, sərvətlə bağrı sökülən,
İllərlə gözündə dara çəkilən,
Yurduna boylanan həsrət görürəm.

Hər bacı gözündə şəfqət, mərhəmət,
Hər qardaş gözündə hünər, sədaqət,
Hər ata gözündə qayğı, dəyanət,
Hər ana gözündə cənnət görürəm.



## Sevgi harayı

**Oğlan:**

Doğulan eşqimi sən bələmisən,
Bəslənmiş sevgimə nur çiləmisən,
Gözümə baxmısan, qan eləmisən,
Ürəyim sızlayıb ağlayanda gəl!

**Qız:**

Sevənlər içində sıralanmışam,
Eşqin məni vurub… yaralanmışam,
Para-para olub parçalanmışam,
Ürəyim al-qana bulananda gəl!

**Oğlan:**

Eşqin şərbətini qəfil içərəm,
Çaşqınlıq içində kimi seçərəm?!
Bilmərəm, tutarlar, ələ keçərəm,
Gözəllər sinəmi dağlayanda gəl!

**Qız:**

Bağımda qızılgül daraqlayanda,
Sevgiyə ürəyim yanıqlayanda,
Səni əl-əl gəzib soraqlayanda,
Gözlərim dünyanı dolananda gəl!

**Oğlan:**

Geciksən dodağım qaysaqlanacaq,
Çatmasan bu eşqim dustaqlanacaq,
O eşqin könlümə yasaqlanacaq,
Dəli sevgi məni çuğlayanda gəl!

**Qız:**

Bilirəm…haqqın var seçib-sevməyə,
Mən özüm möhtacam eşqi bölməyə,
Gözün düşüb bağımdakı meyvəyə,
Gözlə, qoy yetişsin, sulananda gəl!

**Oğlan:**

Bil ki, aşiqin var Eyvaz adında,
Qəlbini çaldım ki, qalım yadında,
Həyat şirinləşir vüsal dadında,
Eşqin səni mənə bağlayanda gəl!